**Heydər Rəşid oğlu Ağayev**

**UOT: 336.641:368.07; JEL: I13; J65; G23; P43.**

# Azərbaycanda iqtisadi islahatlar dövründə sığorta sisteminin inkişafının aktual problemləri

***Xülasə***

*Məqalədə Azərbaycanda iqtisadi islahatlar dövründə sığorta sisteminin inkişafının aktual problemləri tədqiq olunmuşdur. Bunun üçün sığorta sisteminin mahiyyəti açıqlanmış və inkişaf problemləri öyrənilərək sistemləşdirilmişdir. Sığorta sisteminin iqtisadi islahatlar dövründə əhəmiyyəti və multiplikativ təsiri araşdırılmışdır. İqtisadi islahatların səmərəli təşkilində sığorta sisteminin rolu baxılmış və qiymətləndirilmişdir. Cəlbedici və səmərəli sığorta xidmətlərinin iqtisadi islahatların sürətləndirilməsində mühüm əhəmiyyəti açıqlanmışdır. İqtisadi islahatlar iştirakçılarının, sahibkarlıq və biznes subyektlərinin mobil və cəlbedici sığorta xidmətləri ilə təmin edilməsi hesabına, həmin subyektlərin fəallığının artırılması istiqamətləri müəyyənləşdirilmişdir.İqtisadi islahatların sürətləndirilməsində sığorta xidmətlərinin multiplikativ təsiri açıqlanmış və qiymətləndirilmişdir. Ölkədə maliyyə bazarının inkişaf etdirilməsində və maliyyə xidmətlərinin çeşidinin genişləndirilməsində sığorta sisteminin rolu təhlil olunmuşdur. İqtisadi islahatlarda çevik və səmərəli sığorta xidmətləri hesabına, maliyyə bazarı iştirakçılarının, sahibkarlıq və biznes subyektlərinin qarşılıqlı maraqlarının qorunması zərurəti baxılmış və qiymətləndirilmişdir. Azərbaycanda iqtisadi islahatlar dövründə sığorta sisteminin inkişafının aktual problemləri üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.*

***Açar sözləri:*** *iqtisadi islahatlar, sığorta sistemi, sığorta xidmətləri, sığorta şirkətləri, sığorta sisteminin inkişaf problemləri, sahibkarlıqda sığorta xidmətləri, biznesdə sığorta xidmətləri.*



## Giriş

Sığorta xidmətləri və bununla əlaqədar olaraq sığorta fəaliyyəti qədim tarixə malikdir. Hələ, bizim eradan əvvəl başlayaraq, sığorta fəaliyyətinin müxtəlif əlamətləri müşahidə edilmişdir. XIII əsrdə insanlar arasında ictimai-iqtisadi münasibətlər sistemində zərərlərin bölüşdürülməsi forması mövcud idi, belə ki, XIV-XVIII əsrlərdə dəniz nəqliyyatının inkişaf proseslərində yaranan təhlükələrdən sığortalanma müqavilələri var idi. Bundan əlavə, XVIII-XIX əsrlərdə sənaye sahələrinin inkişafı ilə bağlı sığorta xidmətlərinin əhatəsi genişlənmişdir və bu dövrdə həyat sığortasının müxtəlif formaları yaranmışdır. XX əsrdən etibarən sığorta sisteminin formalaşdırılması və inkişaf etdirilməsi prosesləri artıq daha sürətli xarakter almışdır və müxtəlif istiqamətlərdə, sahələrdə sığorta xidmətlərinin göstərilməsi mexanizmləri və formaları mövcud idi. XX əsrin II yarısından başlayaraq sığorta xidmətləri iqtisadiyyatın və cəmiyyətin əksər sahələrində tələb olunan xidəmət növü kimi diqqət çəkmişdir. Son 20-30 il ərzində isə sığorta fəaliyyəti qlobal xarakter almış, bu sahədə təkmilləşdirilmiş mexanizmlər həyata keçirilmiş axırıncı onillikdə isə yüksək texnologiyaların genişlənməsi, internet-resurslar və informasiya-kommunikasiya texnologiyalarının sürətlə iqtisadi inkişaf proseslərinə tətbiqi ilə bağlı sığorta xidmətlərinin strukturu xeyli dəyişmiş və genişlənmidir.

*©Heydər Rəşid oğlu Ağayev Azərbaycan Kooperasiya Universiteti, doktorant. E-mail: agayevheyder.r@gmail.com*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

**Müasir təcrübədə sığorta sisteminin inkişafı**

Hazırda elektron sığorta xidmətləri iqtisadiyyatın və cəmiyytin bütün sahələrində geniş tələb olunan xidmət növü kimi qiymətləndirilir. İstənilən ölkədə iqtisadi proseslərin etibarlılığının təmin olunması iqtisadi və sosial proseslər iştirakçılarının maraqlarının təmin edilməsi məqsədilə səmərəli müdafiə mexanizmi kimi sığorta xidmətləri tələb olunur. Bu baxımdan, iqtisadi islahatlar şəraitində sığorta sisteminin səmərəliliyinin təmin edilməsi problemləri müasir dövrdə kifayət qədər aktuallığı ilə seçilir. Mahiyyət baxımından, sığorta çoxfunksiyalı xüsusiyyətlərə malik fəaliyyət sahələrindəndir və ölkənin maliyyə sisteminin əsas komponentlərindən hesab olunur. Buna görə də, sığorta mühüm iqtisadi kateqoriya olaraq, başqa iqtisadi kateqoriyalardan əhəhmiyyətli səviyyədə fərqlənir. Eyni zamanda, bütün yaxınlıq və oxşarlıqlarına baxmayaraq, sığortanın başqa iqtisadi kateqoriyalara bənzəməyən əlamətləri də mövcuddur. Sığorta iqtisadi inkişaf proseslərində risklərin azaldılması və müxtəlif subyektlər üzrə bölüşdürülməsində spesifik funksiyaları yerinə yetirir [3].

Müxtəlif dünya ölkələrində sığorta sisteminin inkişaf etdirilməsi ilə bağlı proseslərə yanaşmalar spesifikliyi ilə diqqət çəkir, belə ki, son dövrlərdə dünya ölkələrində sığorta sisteminin inkişaf etidirilməsi və sığorta bazarlarının dinamikliyinin intensivləşdirilməsi proseslərinə daha çox önəm verilməkdədir. Digər tərəfdən, maliyyə bazarında baş verən transformasiyalar və inkişaf tendensiyaları fonunda sığorta sisteminin əhəmiyyəti xeyli yüksəlmişdir. 2008-ci ilin sonlarından başlayan dünya maliyyə böhranının və iqtisadi tənəzzülün mənfi fəsadlarının aradan qaldırılmasında sığorta fəaliyyətinin önəmli rolu olmuşdur və təsadüfi deyildir ki, sığortanın multiplikativ təsiri nəticəsində milli iqtisadiyyatların inkişaf proseslərində müsbət hallar diqqət çəkmiş, artım templəri bərpa edilmişdir. Belə ki, ABŞ və Böyük Britaniyada, Yaponiyada, həmçinin bir sıra Avropa ölkələrində növbəti illərdə iqtisadiyyatın artım tempinin 1,0-1,5 % səviyyəsində yüksələcəyi proqnozlaşdırılır, Çində isə iqtisadiyyatın artım tempinin 5-6 % səviyyəsində sabit şəkildə davam edəcəyi gözlənilir [15]. Eyni zamanda, maliyyə bazarlarının dinamikliyinin artması prosesləri çərçivəsində sığorta fəaliyyətinin rolunun daha da artacağı və sığorta şirkətlərinin dünya iqtisadi proseslərində, maliyyə bazarlarında əhəmiyyətinin yüksələcəyini proqnozlaşdırmaq mümkündür. Məsələn, iqtisadi cəhətdən inkişaf etmiş bir sıra ölkələrdə sığorta haqlarının toplanmış həcmindən istifadənin strukturuna nəzər saldıqda, 2017-ci il üzrə sığorta ödənişlərinin artım tempi ABŞ-da - 1,3 % təşkil etmişdir və bu göstərici Kanadada - 2,3 %, Yaponiyada - 1,0 %, Almaniyada - 0,6 % səviyyəsində qeydə alınmışdır. Digər tərəfdən, qlobal sığorta kompaniyalarının fəaliyyəti ilə bağlı məqamlar diqqət çəkir. Belə ki, dünyanın əksər ölkələrində geniş miqyaslı fəaliyyət göstərən qlobal sığorta şirkətlərinin əhəmiyyətli hissəsi iqtisadi gücünə görə dünya lideri olan ABŞ-ı təmsil edir. Digər əhəmiyyətli bir qrup sığorta kompaniyaları isə Böyük Britaniya, Yaponiya, Almaniya, Fransa və s. bu kimi güclü ölkələrə məxsusdurlar. Eyni zamanda, öz iqtisadi gücünü hər il artıran Çində də qlobal sığorta kompaniyalarının kapitallaşma səviyyəsi artmaqdadır və onlar öz potensiallarına görə artıq dünyada ən güclü və lider sığorta kompaniyalarına çevrilməkdədirlər. Bunun bir səbəbi də Çinin özündə müxtəlif sığorta xidmətlərinə geniş tələbatın və bütövlükdə sığorta potensialının xeyli yüksək olması sığorta kompaniyaları üçün məhsuldar və dayanıqlı maliyyə mənbələri rolunu yerinə yetirir və nəticədə sığorta xidmətlərinin həcmi və dairəsi ilbəil artmaqda və genişlənməkdə davam edir. Dünya təcrübəsinə uyğun olaraq baxdıqda, sığortanın müxtəlif növlərinin və formalarının olduğunu görmək mümkündür və bunlar əsasən həyatın və iqtisadiyyatın müxtəlif mühüm sahələrini əhatə edir: icbarı sığorta, bu halda əsasən müxtəlif hadisələr, konkret nəqliyyat vasitələrində baş verən bədbəxt hadisələrdən, nəqliyyat qəzalarından sığortalanmalar, həmçinin tibbi



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

sığorta daha çox yayılmışdır; könüllü sığorta formasında isə, əsasən geniş spekterdə həyat sığortası xidmətləri daxildir və həyat sığortası sığorta fəaliyyətinin əhəmiyyətli hissəsini özündə birləşdirir, bundan əlavə yüklərin sığortası, pensiya sığortası və bədbəxt hadisələr üzrə könüllü sığortalanmalar üzrə xidmətlər mövcuddur; əmlak sığortaları istiqamətində isə müxtəlif növ əmlkaların çoxlu sayda sığorta hadisələrindən qorunması məqsədilə sığorta xidmətlərindən geniş istifadə edilir, məsələn fiziki və hüquqi şəxslərin müxtəlif növ əmlaklarının sığorta olunması, obyektlərin yanğından və qəzalardan sığortalanması; sahibkarlıq və biznes sahələrində sığorta xidmətlərindən istifadə müasir dövrdə aktual xarakter almışdır və bunlarla yanaşı aqrar sektorda sığorta xidmətlərinin günişləndirilməsinə maraq ilbəil artmaqdadır. Bunlarla əlaqədar olaraq, iri kapitala malik sığorta şirkətlərinin sayı ilbəil artmaqda və onların fəaliyyəti genişlənməkdədir [14]. Eyni zamanda, inkişaf etməkdə olan ölkələrdə sığorta bazarının artım tempinin az da olsa yüksəlməsi kontekstində, inkişaf etməkdə olan dünya sığorta bazarında artımın dinamikliyi, ümumilikdə dünya sığorta bazarının növbəti illərdə inkişaf tempinin artmasını proqnozlaşdırmağa imkan verir [8]. İqtisadi islahatlar dovründə sığorta sisteminin səmərəliliyinin təmin edilməsi problemləri vacib məsələlər kimi ön plana çıxmışdır. Bunlarla əlaqədar olaraq, sığorta sisteminin inkişaf etdirilməsi ilə bağlı problemlərin mahiyyətinin fundamental olaraq baxılması, açıqlanması və zəruri tədbirlərin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir [5].

**Azərbaycanda iqtisadi islahatlar şəraitində sığorta sisteminin inkişafına yanaşmaların strateji aspektləri**

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra, milli iqtisadi maraqlara cavab verən sığorta sisteminin inkişaf etdirilməsi istiqamətində zəruri qanunvericilik bazasının formalaşdırılması və inkişaf etdiilməsi üçün tədbirlər görmüş, bunun üçün vacib qanunlar qəbul edilmişdir. Belə ki, 5 yanvar 1993-cü ildə "Sığorta haqqında" Azərbaycan Respublikasının qanunu qəbul olunmuşdur [12]. 2007-ci il dekabr ayının 25-də isə "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunu qəbul edilmişdir [11]. Həmin qanun ölkədə sığorta sisteminin inkişafı və sığorta bazarının iştirakçıları, o cümlədən sığortaçıların, təkrarsığortaçıların, sığorta vasitəçilərinin fəaliyyətinin əsas istiqamətlərini və prinsiplərini müəyyənləşdirməklə yanaşı, eyni zamanda sığorta sahəsində tənzimləmə və nəzarətin hüquqi-iqtisadi mexanizmlərini müəyyən etmişdir. Daha sonra, 1999-cu il oktyabrın 28-də "Tibbi sığorta haqqında Azərbaycan Respublikasının Qanunu" qəbul olunmuşdur [13]. 2011-ci il iyunun 24-də qəbul olunmuş "İcbari sığorta haqqında" Azərbaycan Respublikasının qanunu ölkədə sığorta xidmətlərinin həcmini və əhatəsinin genişləndirilməsində əhəmiyyətli rol oynamaqdadır [9]. Ölkədə işsiz əhalinin hüquqlarının təmin edilməsi və bunlarla bağlı problemlərin tənzimlənməsi məqsədilə 30 iyun 2017-ci ildə "İşsizlik sığortası haqqında" Azərbaycan Respublikasının qanunu qəbul edilmişdir [10]. Bu qeyd olunan qanunların əhəmiyyəti ölkədə sığorta sisteminin inkişafı üçün müvafiq tənzimləyici mexanizmlərin hazırlanması və sığorta sisteminin inkişafına imkan verən şəraitin yaradılması ilə bilavasitə bağlıdır. Keçən dövr ərzində sığorta sistemi inkişaf etmiş, ölkədə heç də az olmayan sığorta şirkətləri yaranmış, sığorta bazarları formalaşmış və əksər fəaliyyət sahələri, həmçinin həyat sığortası üzrə bir çox sığorta xidmətləri formalaşdırılmış və göstərilmişdir.

Sığorta xidmətləri ölkənin maliyyə bazarının intensivliyində xüsusi paya malikdir. Son illərdə, sığorta sisteminin fəaliyyətinin daha da gücləndirilməsi və sığorta xidmətlərinin çeşidinin genişləndirilməsi istiqamətində strateji yanaşmalar formalaşdırılmışdır. Maliyyə sabitliyinin təmin edilməsi, maliyyə sisteminin dayanıqlılığının gücləndirilməsi, maliyyə bazarının intensivliyinin təmin olunması tədbirlərinə xüsusi önəm verilməkdədir, o cümlədən maliyyə bazarlarında sığorta şirkətlərinin və ümumilikdə sığorta fəaliyyətinin rolunun gücləndirilməsi, sığorta xidmətlərinin diversifikasiyalaşdırılması üzrə əsas hədəflər strateji yol



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

xəritəsində - ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə verilmişdir [4].

Sığorta sisteminin dövlət tənzimlənməsinin əsas problemi bütövlükdə sığortalıların və ölkənin iqtisadiyyatının maraqlarının müdafiə edilməsinin optimal təmin olunmasıdır. Eyni zamanda, sığorta fəaliyyətinin gücləndirilməsi istiqamətində davamlı tədbirlərin görülməsi, bununla əlaqədar olaraq sistemli tənzimlənmə mexanizmlərinin işlənib hazırlanması vacb şərtlərdəndir. Belə ki, sığorta sisteminin təkmilləşdirilməsi və qlobal maliyyə çağırışlarına uyğun olaraq, daha səmərəli fəaliyyət alətlərinin formalaşdrılması, onun multiplikativ təsirindən və çoxfunksiyalılıq xüsusisyyətlərindən səmərəli istifadə etməklə, iqtisadi islahatların aparılmasında və inkişaf proseslərinin sürətləndirilməsində fəal istifadə edilməsi müsbət nəticələr vermək imkanına malikdir. Bunun üçün sığorta sisteminin mövcud vəziyyəti və sığorta şirkətlərində maliyyə sabitliyi problemləri həll olunmalı, sığorta sisteminin dinamik inkişafı təmin edilməlidir [7]. sığorta mexanizmi bölüşdürücü funksiyasına malik olsa da, həm də xəbərdaredici funksiyası hesabına iqtisadi islahatlar dövründə ortaya çıxa biləcək riskləri qabaqcadan xəbərdar edir, zəruri tədbirlərin görülməsinin vacibliyini ön plana çəkir. Bundan əlavə, sığorta - sığortalının əmlakının və əmlak mənafelərinin müdafiəsində formalaşan münasibətlərin məcmusu xüsusiyyətlərinə malikdir. Sığorta iqtisadi anlayış kimi baxılmaqla bərabər, iqtisadi fəaliyyət sahələrinin və cəmiyyətin inkişafında əhəmiyyətli funksiyaları yerinə yetiri. Sığorta istehsal prosesində baş verən maddi itkilərinin əvəzinin ödənilməsi ilə əlaqədardır və bu baxımdan böyük iqtisadi, eyni zamanda sosial əhəmiyyəti vardır [6].

**Azərbaycanda müasir dövrdə sığorta sisteminin inkişaf proseslərinin təhlil və perspektiv inkişaf istiqamətlərinin qiymətləndirməsi**

Ölkədə sığorta sisteminin və sığorta şirkətlərinin vəziyyətinə nəzər salsaq, qeyd etmək olar ki, 2019-cu ilin əvvəlinə 21 sığorta şirkəti fəaliyyət göstərir, bunlardan cəmisi 3 sığorta şirkətinin il ərzində topladıqları sığorta haqlarının həcmi 50 milyon manatdan çoxdur. Bunlara "Paşa Həyat Sığorta" ASC, "Paşa Sığorta" ASC və "Atəşgah Həyat" Sığorta Şirkəti" ASC aiddirlər. Ölkə üzrə fəaliyyət göstərən sığorta şirkətləri tərəfindən 2018-ci il ərzində sığorta sinifləri üzrə hesablanmış sığorta haqlarının ümumi məbləği isə 727,9 milyon manat təşkil etmişdir və il ərzində bu məbləğin cəmisi 240,3 miylon manatı və yaxud 33 %-i sığorta ödənişləri şəklində sığorta edilənlərə ödəniş formasında istifadə olunmuşdur [2]. Bundan əlavə, 2018-ci ildə sığorta sinifləri üzrə hesablanmış sığorta haqları və sığorta ödənişlərinin təhlilindən baxsaq, hesablanmış sığorta haqlarının strukturunda əsas yeri könüllü sığortaların tutmasını gömək olar və bu göstərici üzrə 536,1 mln. manat qeydə alınmışdır. Həmin məbləğin 305,7 mln. manatı həyat sığortasına aiddir və qeyri-həyat sığortasının həcmi isə 230,4 mln. manat səviyyəsindədir [1].

Aşağıda dünya sığorta bazarı və xüsusilə ölkəmizin sığorta bazarı, sığorta sisteminin fəaliyyətini əks etdirən əsas göstəricilər üzrə, həmçinin, ayrı-ayrı sığorta xidmətlərinə dair təhlillər vermişik. Şəkil 1-də dünya sığorta bazarının 2007-2017-ci illər ərzində inkişaf dinamikası baxılmışdır və göründüyü kimi 2007-2017-ci illər ərzində dünya sığorta bazarının həcmi 18,4 % artmışdır, bu isə orta illik 1,67 % artım deməkdir.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Şəkil 1.**

**Dünya sığorta bazarının inkişaf dinamikası (mlrd. ABŞ doll.)**




**Mənbə: Şəkil rəsmi mənbələr əsasında müəllif tərəfindən hazırlanmışdır.**

Şəkil 2-də Azərbaycanda 01.01.2019-cu ilin əvvəlinə fəaliyyət göstərən sığorta təşkilatlarının sayı verilmişdir və ölkədə fəaliyyət göstərən 23 sığorta təşkilatından 19-u qeyri-həyat sığortası üzrə ixtisaslaşmışdır.

**Şəkil 2.**

**Azərbaycanda sığorta təşkilatlarının sayı (01.01.2019)**




**Mənbə: Şəkil ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.**

Şəkil 3-də Azərbaycanda 2013-2018-ci illərdə fəaliyyət göstərən sığorta təşkilatlarının cəmi aktivlərinin təhlili verilmişdir və həmin dövr ərzində artım 45 % təşkil etmişdir.

Ölkədə sığorta sisteminin işləkliyinin təmin edilməsi və bununla əlaqədar sığorta xidmətlərinin stukturunun genişləndirilməsi, sığorta təşkilatlarının fəaliyyətinin gücləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Məsələn, 2015-ci ildən etibarən ölkədə sığorta şirkətlərinin aktivlərinin həcmində artım yoxdur və azalma qeydə alınmışdır. Bundan əlavə, ölkədə xidmət sektorunun, o cümlədən ticarət sahəsinin, müxtəlif xidmət sahələrinin geniş inkişaf etməsinə, iri ticarət və alış-veriş mərkəzlərinin, iaşə obyektlkərinin fəaliyyət göstərməsinə baxmayaraq sığorta müqavilələrinin sayında əhəmiyyətli artıma nail olunmamışdır.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Şəkil 3.**

**Azərbaycanda fəaliyyət göstərən sığorta təşkilatlarının cəmi aktivləri (mln. manat)**




**Mənbə: Şəkil ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.**

Bütün bu kimi səbəblərdən n həmin kateqoriyadan olan obyektlərdə fors-major hallarda, o cümlədən yanğınlar baş verdikdə çoxlu sayda sahibkarlar, obyekt sahibləri, icarədarlar maddi ziyana düşürlər və sığorta olmaması səbəbindən onların qarşılanması, dəymiş zərərin kompensasiya edilməsi çətinləşir, nəticədə dövlət bu məsələyə qarışmalı olur, bunlar isə bazar iqtisadiyyatı prinsiplərinə ziddir. Şəkil 4-də isə Azərbaycanda 2010-2017-ci illərdə sığorta müqavilələri üzrə sığorta haqlarından daxilolmaların ümumi məbləği verilmişdir və burada artım dinamikası diqqət çəkir.

**Şəkil 4.**

**Azərbaycanda sığorta müqavilələri üzrə sığorta haqlarından daxilolmaların ümumi məbləği (mln. manat)**




**Mənbə: Şəkil ARDSK-nın rəsmi nəşrləri üzrə müəllif tərəfindən hazırlanmışdır. http://www.stat.gov.az.**

Şəkil 5-də Azərbaycanda 2010-2017-ci illərdə sığorta ödənişlərinin ümumi məbləği üzrə göstəricilər verilmişdir və 2017-ci ildə 2016-cı illə nisbətdə artım dinamikası öz əksini tapmışdır.

**Şəkil 5.**

**Azərbaycanda sığorta ödənişlərinin ümumi məbləği (mln. manat)**




**Mənbə: Şəkil ARDSK-nın rəsmi nəşrləri üzrə müəllif tərəfindən hazırlanmışdır. http://www.stat.gov.az.**



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Şəkil 6-da 2013-2017-ci illər ərzində Azərbaycanda könüllü sığorta üzrə daxilolmaların strukturu verilmişdir, o cümlədən həyat və qeyri-həyat sığortaları haqlarından daxilolmaların göstəriciləri əks olunmuşdur, təhlildən göründüyü kimi 2013-2017-ci illərdə qeyri-həyat sığortasında artım olmamışdır, belə ki, 2013-cü ildə bu sığorta növü üzrə daxilolmaların məbləği 235,9 mln. manat olmuşdursa, həmin göstərici 2017-ci ildə 214,5 mln. manat səviyyəsində qeydə alınmışdır, həyat sığortası ilə bağlı sığorta haqlarından daxilolmalar 2013-cü ildə 28,1 mln. manat təşkil etmişdir, həmin göstərici 2017-ci ildə 6,38 dəfə çoxalmış və 179,2 mln. manat məbləğində qeydə alınmışdır, buradan belə bir fikir formalaşır ki, ölkənin sığorta bazarının inkişafında və sığorta şirkətlərinin maliyyə imkanlarının yüksəlməsində önəmli yeri həyat sığortası tutur.

**Şəkil 6.**

**Azərbaycanda həyat və qeyri-həyat sığortası haqlarından daxilolmalar (mln.manat)**




**Mənbə: Şəkil ARDSK-nın rəsmi nəşrləri üzrə müəllif tərəfindən hazırlanmışdır. http://www.stat.gov.az.**



Yaxın illərdə ölkəmizdə strateji iqtisadi inkişaf hədəflərinin tələblərinə və meyarlarına uyğun olaraq iqtisadi islahatlar şəraitində sığorta sisteminin inkişafının aktual problemlərinə diqqətin daha da artırılması tələb olunur.

**Nəticə**

Beləliklə, iqtisadi islahatlar dövründə sığorta sisteminin mövcud mexanizmlərinin və praktiki alətlərinin yenilənməsi, bunlarla bağlı bütövlükdə sığorta sisteminin özünün təkmilləşdirilməsi tədbirlərinin sürətləndirilməsi, qlobal maliyyə və sığorta tendensiyalarına, çağırışlarına, inkişaf istiqamətlərinə uyğun gələn yeni yanaşmaların və fəaliyyət modellərinin formalaşdırılması məsələləri aktual problemlər olaraq qalmaqdadır və bunların həlli istiqamətində bir sıra məsələlərə daha çox diqqət yetirilməsi lazımdır:

- iqtisadi islahatlar dövründə sığorta sisteminin inkişafının aktual problemlərinə qlobal kontekstdə və strateji yanaşmalar səviyyəsində baxılmalı, konseptual baxışlar formalaşdırılmalı və bu sistemin hansı səviyyədə təkmilləşdirilməsi və ya yenilənməsinin vacibliyi müəyyənləşdirilməli və tədbirlər kompleksi hazırlanaraq həyata keçirilməlidir;
- mövcud sığorta mexanizmlərinin və praktiki fəaliyyət alətlərinin məhsuldarlığının artırılması, səmərəliliyinin yüksəldilməsi üçün qanunvericilik bazası gücləndirilməli, sığorta təşkilatlarının fəaliyyətinin iqtisadi islahatları sürətləndirilə biləcək səviyyədə stimullaşdırılması tədbirləri görülməli, ümumilikdə maliyyə bazarının sabitliyi ilə əlaqəli strateji məsələlərə xüsusi diqqət yetirilməli, daha çevik və işlək sığorta xidmətlərinin formalaşdırılması və iqtisadi islhatlar iştirakçıları üçün əlçatanlığın yaradılması təmin olunmalıdır.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Ədəbiyyat**


1. 2018-ci il yanvar-dekabr ayları üzrə hesablanmış haqları və sığorta ödənişləri haqqında məlumat (sığorta sinifləri üzrə). Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası. https://www.fimsa.az.
2. 2018-ci il yanvar-dekabr ayları üzrə hesablanmış sığorta haqları və sığorta ödənişləri haqqında məlumat (sığorta şirkətləri üzrə) Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası. https://www.fimsa.az.
3. Ataşov B.X., Ələkbərov Ə.Ə., Xudiyev N.N. Sığorta işi. Bakı, 2018, "Kooperasiya" nəşriyyatı, 416 s.
4. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016, 59 s.
5. Əliyev Ş.T. Azərbaycanda maliyyə sabitliyinin təmin edilməsi problemləri və maliyyə-kredit sisteminin inkişafının müasir aspektləri // Audit, № 03, 2017, S. 26-40.
6. Xankişiyev B.A., Abdullayev P.N. Sığorta işi. Bakı, "Adiloğlu" nəşriyyatı, 2004, 186 s.
7. İbrahimov K.M. Azərbaycanda sığorta sisteminin mövcud vəziyyəti və sığorta şirkətlərində maliyyə sabitliyi problemləri //Audit Jurnalı, cild 19, №2, 2018.-S.49-57.
8. İbrahimov K.M. Dünya sığorta bazarının inkişaf tendensiyalari və qanunauyğunluqları // AUDİT Jurnalı , cild 21, №3, 2018, S. 21-30.
9. İcbari sığorta haqqında Azərbaycan Respublikasının qanunu. Bakı, 24 iyun 2011-ci il, № 165-IVQ.
10. İşsizlik sığortası haqqında Azərbaycan Respublikasının qanunu. Bakı, 30 iyun 2017-ci il, №765-VQ.
11. Sığorta fəaliyyəti haqqında Azərbaycan Respublikasının qanunu. Bakı, 25 dekabr 2007-ci il, №519-IIIQ.
12. Sığorta haqqında Azərbaycan Respublikasının qanunu. Bakı, 05.01.1993-cü il, № 437.
13. Tibbi sığorta haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 28 oktyabr 1999-cu il № 725.
14. Мировой страховой рынок: операторы, тенденции и инфраструктура. http://udik.com.ua.
15. Прогноз развития глобального рынка страхования на 2017-2018 годы: 5 ключевых тенденций в мире. https://forinsurer.com.




***Гейдар Рашид оглы Агаев***

***Актуальные проблемы развития системы страхования в период экономических реформ в Азербайджане***

***Резюме***

*В статье исследованы актуальные проблемы развития системы страхования в период экономических реформ в Азербайджане. С этой целью раскрыта сущность и систематизированы проблемы развития сферы страхования. Рассмотрено мультипликативное влияние и важность интенсивного развития системы страхования в период экономических реформ. Оценена роль системы страхования в эффективной организации экономических реформ. Раскрыта стратегическая важность привлекательных и эффективных страховых услуг в ускорении экономических реформ. Определены направления повышения активности субъектов предпринимательства и бизнеса, в целом, участников экономических реформ путем активной разработки и применения мобильных и привлекательных страховых услуг. Обоснована необходимость ускорения оптимизации деятельности страховых*

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

*компаний и организаций по разработке и реализации более мобильных и продуктивных страховых услуг для обеспечения стабильной деятельности участников экономических реформ. Анализирована роль системы страхования в интенсификации развития финансового рынка и расширения ассортимента финансовых услуг в стране. Подготовлены рекомендации и предложения по актуальным проблемам развития системы страхования в период экономических реформ в Азербайджане.*

***Ключевые слова:*** *экономические реформы, система страхования, услуги страхования, страховые компании, проблемы развития системы страхования, страховые услуги в предпринимательстве, страховые услуги в бизнесе.*

***Heydar Rashid Agayev***

***Current problems of insurance system development in period of economic reforms in Azerbaijan***

***Summary***

*Main problems of insurance system development during the period of economic reforms in Azerbaijan are investigated in the article. The essence and problems of insurance development are systematized for this purpose. The multiplicative influence and importance of intensive development of the insurance system during the period of economic reforms is investigated. The role of the insurance system in the effective organization of economic reforms is analyzed. The strategic importance of attractive and efficient insurance services in accelerating economic reforms is given too. Directions of increasing activity of business and business entities, in general, participants of economic reforms through active development and application of mobile and attractive insurance services are defined. The need to accelerate optimization of activities of insurance companies and organizations on development and implementation of more mobile and productive insurance services to ensure stable activity of participants of economic reforms is justified. The role of the insurance system in intensifying the development of the financial market and expanding the range of financial services in the country is analyzed. A number of recommendations and proposals on main problems of the development of the insurance system during the period of economic reforms in Azerbaijan, taking into account modern realities are given in the end of the article.*

***Keywords:*** *economic reforms, insurance system, insurance services, insurance companies, problems of insurance system development, insurance services in entrepreneurship, insurance services in business.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 02.03.2020.***
***Çapa qəbul olunub: 05.03.2020.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*